

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 207 (21.868)

1 noyabr 2017-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Oktyabrın 31-də Bakıda Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının altıncı iclasının keçirilməsi ilə əlaqədar Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın rəsmi qarşılanma mərasimi olub.

Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olub.

Oktyabrın 31-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının altıncı iclası keçirilib.

Həmin gün Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının altıncı iclası başa çatdıqdan sonra Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Azərbaycan-Türkiyə sənədlərinin imzalanması mərasimi olub.

Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata bəyanatlarla çıxış ediblər.

***Makroiqtisadi sabitliyin qorunması iqtisadi inkişafın əsas şərtlərindəndir. Bu sahədə həyata keçirilən işlər sırasında isə, şübhəsiz ki, bank sektoru tərəfindən davamlı olaraq iqtisadi aktivliyin artırılması məqsədilə görülən işlərin də mühüm rolu vardır. Naxçıvan Muxtar Respublikasında real sektora kredit qoyuluşunun artması və sahibkarların maliyyə resurslarına çıxış imkanlarının yaxşılaşdırılması nəticəsində bank sektorunun maliyyə dayanıqlılığı ötən dövr ərzində də uğurla təmin olunub. Kreditlər əhalinin vəsait çatışmazlığını kompensasiya etməklə yanaşı, ümumi iqtisadi aktivliyin artırılmasında, sahibkarlığın inkişafında, işsizliyin aradan qaldırılmasında da əhəmiyyətli rol oynayır.***

## Bank sektorunda maliyyə dayanıqlılığı təmin edilib



Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindən aldığımız məlumata əsasən Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən banklar və kredit təşkilatları tərəfindən cari ilin 9 ayı ərzində muxtar respublikanın iqtisadiyyatına yönəldilən kredit qoyuluşunun həcmi 104 milyon 314 min manat, o cümlədən qısamüddətli kredit qoyuluşu 4 milyon 379 min manat, uzunmüddətli kredit qoyuluşu isə 99 milyon 935 min manat təşkil edir.

Aparılan təhlillər göstərir ki, cari ilin yanvar-sentyabr aylarının nəticələri, ümumilikdə, muxtar respublikada fəaliyyət göstərən bank və bank olmayan kredit təşkilatları üçün uğurlu olub. Banklar qarşısında qoyulmuş ən mühüm vəzifələrdən biri olan iqtisadiyyata kredit qoyuluşunda müsbət dinamika qorunub saxlanılıb. Belə ki, cari ilin 9 ayı ərzində verilmiş kreditin məbləği 23 milyon 736 min manat olub ki, bunun da 3 milyon 497 min manatı qısamüddətli, 20 milyon 239 min manatı isə uzunmüddətli kreditlərin payına düşür. Verilmiş kreditlərin 1 milyon 572 min manatı kənd təsərrüfatı, 556 min manatı sənaye, 70 min manatı tikinti, 6 milyon 13 min manatı kommersiya, 3 milyon 453 min manatı daşınmaz əmlakla əlaqədar ipoteka kreditlərinin verilməsinə, 12 milyon 72 min manatı digər kommunal, sosial və istehlak kreditlərinin verilməsinə yönəldilib. Sahələr üzrə nəzər saldıqda, 50,9 faizlə istehlak kreditləri, 6,7 və 2,3 faizlə kənd təsərrüfatı və sənaye sahələri, 14,5 faizlə isə ipoteka kreditləri daha çox diqqəti cəlb edir. Kənd təsərrüfatı üzrə verilmiş kreditlərin 1 milyon 98 min manatı heyvandarlığın, 87,4 min manatı isə kartofçuluğun inkişafına yönəldilib. Ötən illərdən fərqli olaraq bu il qarğıdalı əkinlərinin genişləndirilməsi üçün verilmiş 78,7 min manatlıq kredit bu sahənin inkişafında mühüm rol oynayıb. Ərzaq təhlükəsizliyinin təmin olunmasında əsas strateji məhsul olan taxılçılığa isə bəhs olunan dövrdə 65,6 min manat həcmdə kredit yönəldilib ki, bu da bitkiçilik məhsulları üzrə xərclənmiş ümumi vəsaitin 21,6 faizini təşkil edir.

Cari ilin 9 ayında muxtar respublika iqtisadiyyatına kredit qoyuluşunu həyata keçirən kredit təşkilatları arasında isə 91,9 faizlə özəl banklar üstünlük təşkil edir. Bunlardan sonrakı yerləri 2,5 faizlə bank olmayan kredit təşkilatları və 5,5 faizlə dövlət bankları tutmaqdadır.

Bəhs olunan dövrdə "2016-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında nağdsız elektron ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram"a uyğun olaraq muxtar respublikada fəaliyyət göstərən bank qurumlarının qeyri-nağd ödənişlərin həcminin artırılması istiqamətində gördüyü işlər də uğurlu olub. Belə ki, muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 574-ü Naxçıvan şəhərində, 683-ü isə rayon və kənd mərkəzlərində olmaqla, 1257-yə çatdırılıb. Elektron ödəniş alətlərindən istifadəyə yaradılmış şərait və aparılan maarifləndirmə işləri sayəsində nağdsız ödənişlərin həcmində artım dinamikası qorunub saxlanılıb, cari ilin yanvar-sentyabr ayları ərzində hər ay orta hesabla 2,5 milyon manat elektron ödəniş həyata keçirilib.

Təhlil olunan dövrdə bankların əhali ilə apardığı işlərin digər bir mühüm istiqaməti olan əmanətlərin cəlb olunmasında da müəyyən işlər görülüb. Belə ki, 2017-ci ilin 9 ayı ərzində muxtar respublikada fəaliyyət göstərən banklarda fiziki şəxslərin əmanətlərinin həcmi 7 milyon 19 min manat, o cümlədən milli valyuta ilə 4 milyon 529 min, xarici valyuta ilə isə 2 milyon 490 min manat təşkil edib. Banklara qoyulan əmanətlərin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə milli valyuta ilə cəlb edilən əmanətlərin həcmi 1 milyon 662 min manat artıb, xarici valyuta ilə cəlb edilən əmanətlərin həcmi isə 1 milyon 140 min manat azalıb.

Əldə olunan nəticələri və dünya iqtisadiyyatında baş verən proseslərlə mövsümi faktorları da nəzərə alsaq, ümumilikdə, muxtar respublikada bank sektorunda maliyyə dayanıqlılığının təmin olunduğunu göstərmək mümkündür. Bunun üçün gələcəkdə muxtar respublikada fəaliyyət göstərən bütün bank qurumları qarşısında elektron ödəniş məkanının formalaşdırılması, nağd pul kütləsinin bank dövriyyəsinə cəlb edilməsi, kredit portfelinin keyfiyyətinə nəzarətin gücləndirilməsi, pul dövriyyəsinin təşkilinin daha da müasirləşdirilməsi, nağdsız hesablaşmaların miqyasının artırılması, yeni bank xidmətlərinin yaradılması prioritet sahə kimi qarşıya qoyulub.

✍ Əli CABBAROV

## Naxçıvan şəhər istilik təsərrüfatı qışa hazırdır

***Hər il olduğu kimi, bu il də qarşıdan gələn qış mövsümündə əhalinin istiliklə təmin edilməsi üçün Naxçıvan şəhərində bir sıra tədbirlər həyata keçirilib.***

Cari ilin 26 avqust tarixində Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2017-2018-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə Naxçıvan şəhərinin istiliklə təminatı sahəsində də konkret tapşırıqlar verilmişdir. Həmin tapşırıqların icrası çərçivəsində Naxçıvan şəhərində inzibati və yaşayış binalarının istiliklə təmin edilməsi məqsədilə bir sıra işlər görülmüşdür.

Qarşıdan gələn qış fəslində şəhərimizdəki mənzillərin və ictimai binaların istiliklə təminatı ilə bağlı Naxçıvan Şəhər İstilik İdarəsinə müraciət etdik. İdarədən bildirdilər ki, əhalinin qış fəslində normal istiliklə təmin olunması, qazanxanaların saz vəziyyətdə işləməsi üçün lazımi tədbirlər görülmüşdür. Belə ki, 2017-2018-ci illərin qış mövsümündə Naxçıvan şəhərində 5 mərkəzləşdirilmiş və 38 fərdi qazanxana vasitəsilə 173 yaşayış binasındakı 7634 mənzil və 30 inzibati bina fasiləsiz olaraq istiliklə təmin ediləcəkdir. İstilik təsərrüfatının kollektivi əhalinin davamlı olaraq istiliklə təmin olunması üçün səylə çalışır. Heç bir çətinlik çəkmədən mövsümə başlamaq üçün 5 mərkəzləşdirilmiş qazanxananın xarici istilik xətləri izolyasiya edilmiş, 38 fərdi qazanxananın hər birinə texniki baxış keçirilərək elektrik, qaz və su xətlərində olan nasazlıqları aradan qaldırmaq üçün əsaslı və cari təmir işləri aparılmış, qazanlar ərpdən təmizlənmiş, sıradan çıxmış cihaz və avadanlıqlar yeniləri ilə əvəz edilmişdir.

Qarşıdakı qış aylarında əhalinin fasiləsiz olaraq istiliklə təmin olunması üçün "İstiqlal" küçəsindəki fərdi qazanxanada bir ədəd yeni qazan quraşdırılmış, 4 fərdi qazanxanadakı qazanlar yeniləri ilə əvəz edilmişdir. Bundan əlavə, 4 fərdi qazanxanada 2 tonluq su çənləri yenilənmiş, şəhərin "Əlincə", "Çənlibel" və "Qoçüstü" məhəllələrində, Heydər Əliyev prospekti, "İstiqlal", Afiyəddin Cəlilov və Nizami küçələrindəki bir sıra binaların zirzəmilərindəki istismara yararsız istilik xətləri yeni plastik borularla əvəz edilmişdir.

İstilik təsərrüfatında mövcud problemlərin həll olunması və şəhərimizin istiliklə təminatında fasilələrə yol verilməməsi, bu sahədə çalışan ixtisaslı işçi probleminin həll olunması üçün qazanxanalarda işləyən ocaqçılar Naxçıvan Şəhər Regional Peşə Tədris Mərkəzində kurslara cəlb olunmuşlar. Hazırda ocaqçı peşəsinə yiyələnmək üçün yeni işçilər təhsil alırlar. İşə qəbul olunan işçilərin əməyin mühafizəsi və texniki təhlükəsizlik qaydalarına əməl etməsi üçün mütəmadi olaraq maarifləndirici tədbirlərin keçirilməsi və onların xüsusi geyimlərlə təmin olunması istilik idarəsi tərəfindən diqqətdə saxlanılan məsələlərdəndir. Onların peşə səviyyəsinin artırılması qəzalara yol verilməməsi və bədbəxt hadisələrin qarşısının alınmasında böyük əhəmiyyət daşıyır.

İstilik təminatı kifayət qədər məsuliyyət tələb edir. Əgər sərt qış aylarında günün 24 saatı ərzində ev və iş yerlərimiz fasiləsiz və təhlükəsiz istiliklə təmin olunursa, bu, yaradılmış geniş infrastruktur şəbəkəsinin gücündən səmərəli istifadə edilməsi ilə mümkündür.

## Rabitə xidmətinin səviyyəsi yüksəldilib

***Şərur rayonunda əhaliyə göstərilən rabitə xidmətinin səviyyəsini yüksəltmək üçün cari ilin 9 ayı ərzində məqsədyönlü tədbirlər həyata keçirilib.***



Rayon Rabitə İdarəsindən aldığımız məlumata görə, 8 ədəd DS200 tipli, 36 ədəd NGN ATS-lərə malik telekommunikasiya şəbəkəsi olan idarə bəhs olunan dövrdə stansiya və xətt qurğularının istismarı, əhaliyə müxtəlif növ rabitə xidmətlərinin göstərilməsi üzrə fəaliyyətini davam etdirib. Bundan başqa, yeni sosial obyektlər inşa olunan kəndlərdə paylanma şəbəkələrinin tamamilə qurulması işlərini həyata keçirib. Qış mövsümündə rabitə vasitələrinin dayanıqlı iş rejiminin təmin edilməsi məqsədilə idarə tərəfindən müvafiq zəruri tədbirlər görülüb.

Hesabat dövründə 420 abonentə stasionar telefon, 13 ədəd Naxtel telefon çəkilişi aparılıb. 482 abonentin isə sürətli, genişzolaqlı internet şəbəkəsinə qoşulması təmin edilib.

Məlumatda o da bildirilir ki, bu il 9 ayı ərzində 420 telefon çəkilişindən 12 min 600 manat, abonent haqlarından 249 min 372 manat yığılıb. Bundan əlavə, şəhərlərarası telefon danışığından 88 min 326, digər rabitə xidmətlərindən 19 min 972 manat əldə edilib. Hesabat dövründə 87 min 525 manatlıq internet kartı satışı, 2 min 375 manatlıq isə sürətli internet xidməti göstərilib. Ümumilikdə, əhaliyə 460 min 235 manatlıq rabitə xidməti həyata keçirilib.

Xəbərlər şöbəsi



1 noyabr Kənd Təsərrüfatı İşçiləri Günüdür

# Muxtar respublikada kənd təsərrüfatı uğurla inkişaf etdirilir

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2008-ci il 9 oktyabr tarixli Fərmanı ilə hər il noyabrın 1-i ölkəmizdə Kənd Təsərrüfatı İşçiləri Günü kimi qeyd olunur.*

Ümummilli lider Heydər Əliyevin ölkəmizə birinci rəhbərliyi dövründə Azərbaycan keçmiş ittifaqın aqrar əlavəsindən kənd təsərrüfatının kompleks inkişaf etdiyi qabaqcıl respublikalardan birinə çevrilmişdir. Həmin dövrdə ölkəmizdə kənd təsərrüfatının elmi əsaslarla inkişafı nəticəsində bu sahədə zəngin təcrübə formalaşmışdır. Təəssüf ki, müstəqilliyin ilk illərində ölkədə baş verən özbaşınalıq nəticəsində aqrar sahədə yaradılan bu infrastruktur da tamamilə dağıdılmışdır. Həmin dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyən ümummilli lider isə kənd təsərrüfatının inkişafının vacibliyini daim ön plana çəkmiş, bununla bağlı mühüm qərarlar qəbul etmişdir. Ali Məclisin 1992-ci il aprelin 6-da keçirilən sessiyasında "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında" və "Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında" qərarlar qəbul edilmiş, bununla da, Azərbaycanda torpaq islahatına ilk dəfə Naxçıvandan başlanılmış, özəl mülkiyyətə əsaslanan aqrar münasibətlər formalaşmışdır. 1993-2003-cü illərdə isə ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizdə bu istiqamətdə kompleks tədbirlər görülmüş, uğurlu islahatlar həyata keçirilmiş, qanunvericilik bazası yaradılmışdır.

Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev qeyri-neft sektorunun, xüsusilə kənd təsərrüfatının inkişafını diqqətdə saxlayır. Ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində ardıcıl tədbirlər görülür. Dövlət proqramları qəbul olunur, kənd təsərrüfatının inkişafı ilə bağlı müşavirələr keçirilir və konkret tapşırıqlar verilir.

Naxçıvan Muxtar Respublikasında da kənd təsərrüfatının inkişafı daim diqqət mərkəzində saxlanılır. Aparılan islahatlar bitkiçilik və heyvandarlıq, eləcə də emal sənayesinin inkişafı üçün geniş imkanlar açmışdır. 2000-ci ildə muxtar respublikada torpaq islahatı başa çatdırılmış, 72 min 758 ailəyə torpaq sahəsi verilmişdir. Bundan sonra kənd təsərrüfatının inkişafında dönüş yaradılmış, bol məhsul istehsalının əsası qoyulmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamları ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üzrə Dövlət Proqramı (2005-2010-cu illər)", "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı", "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" və "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı" muxtar respublikada aqrar sahənin inkişafına mühüm təkan vermiş, kənd təsərrüfatının ayrı-ayrı sahələri üzrə uğurlu nəticələr qazanılmışdır.



Muxtar respublikada əhalinin əsas hissəsinin kənd təsərrüfatı ilə məşğul olması burada əkinçiliyin inkişafını şərtləndirir. Fermerlərə taxıl əkinlərinə görə subsidiyaların verilməsi, texniki təminatın yaxşılaşdırılması üçün istehsalçılara lizinq yolu ilə güzəştli şərtlər əsasında texnika və gübrələrin satılması əkinçiliyin inkişafında yeni istiqamətlər açmış, əkin sahələrinin və məhsuldarlığın ilbəil artmasına səbəb olmuşdur. 2017-ci ilin məhsulu üçün muxtar respublikada 61 min 531 hektar sahədə əkin aparılmışdır. Cari ilin 9 ayı ərzində muxtar respublikada 100 min 116 ton dənli və dənlipaxlalı, 11 min 150 ton dən üçün qarğıdalı, 750 ton dən üçün günəbaxan, 72 min 314 ton tərəvəz, 47 min 490 ton kartof, 36 min 378 ton bostan məhsulları, 38 min 122 ton meyvə, 9 min 732 ton üzüm istehsal olunmuşdur. Bir neçə məhsul növü üzrə yığım hazırda davam etdirilir.

Son illər əkinçilik üçün yararlı olmayan torpaq sahələrində iməciliklər yolu ilə salınan yeni meyvə bağları muxtar respublikanın yaşıl örtüyünü zənginləşdirməklə yanaşı, həm də əhali tələbatının ödənilməsi üçün geniş imkanlar açır. Hər il bu meyvə bağlarından tonlarla məhsul yığılır. Yeni və ənənəvi meyvə sortlarından ibarət bağların salınması da davam etdirilir. Hazırda muxtar respublikada 100 hektara yaxın sahədə püstə bağı salınmışdır. Bu il isə yeni badam bağlarının salınması nəzərdə tutulur.



Torpaq sahələrinin normalara uyğun suvarma suyu ilə təmin olunması əkinçiliyin inkişafını təmin edən əsas amillərdən biridir. Buna görə də muxtar respublikada irriqasiya sistemləri daim yeniləşdirilir, qapalı suvarma şəbəkələri qurulur, meliorasiya tədbirləri həyata keçirilir. Bu da torpaq sahələrində su təminatının yaxşılaşdırılmasına, yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılmasına imkan verir. 2015-ci ildə Vayxır sol sahil kanalından qidalanan və 2200 hektar torpaq sahəsini əhatə edən qapalı suvarma və drenaj şəbəkəsi, 2016-cı ildə Babək rayonunun Kültəpə və Kərimbəyli kəndlərinin 565 hektar torpaq sahəsini əhatə edən yeni suvarma şəbəkəsi istifadəyə verilmişdir. Bu il isə Kəngərli rayonunun Böyükdüz kəndini əhatə edən yeni suvarma şəbəkəsinin açılışı olmuşdur. Yeni qapalı suvarma sisteminin qurulması nəticəsində 407 hektar torpaq sahəsində suvarma işləri yaxşılaşdırılmışdır ki, bunun da hamısı yeni əkin dövriyyəsinə qatılmış torpaqlardır.

Yüksəkkeyfiyyətli qida məhsullarının, xüsusilə süd və ət məhsullarının əldə olunması məqsədilə heyvandarlığın inkişafı diqqət mərkəzində saxlanılır. Əsasən, düzən yerlərdə heyvandarlığın ətlik-südlük istiqaməti inkişaf etdirilir. Bunlar da muxtar respublikada mal-qaranın baş sayının artırılması və əsas növ heyvandarlıq məhsullarının istehsalının çoxalmasına imkan yaradır. Hazırda muxtar respublikada iribuynuzlu mal-qaranın baş sayı 116 min 122 başa, xırdabuynuzlu heyvanların sayı isə 716 min 107 başa çatdırılmışdır. 2017-ci ildə 10 heyvandarlıq və 4 quşçuluq təsərrüfatı yaradılmış, bank və kredit təşkilatları tərəfindən heyvandarlığın inkişafına 1 milyon 98 min 400 manat həcmində kredit verilmişdir.



Əhalini sağlam heyvandarlıq məhsulları ilə təmin etmək üçün Dövlət Baytarlıq Xidməti tərəfindən də tədbirlər həyata keçirilir. Əhalinin sağlamlığının qorunması məqsədilə həyata keçirilən sistemli tədbirlər nəticəsində qida məhsullarının, xüsusilə ət və süd məhsullarının yüksək keyfiyyət göstəricilərinin təmin olunması, heyvan mənşəli xəstəliklərə qarşı vaxtında mübarizə tədbirlərinin aparılması prosesləri uğurla davam etdirilir.

Heyvandarlığın inkişafında əsas amillərdən biri də cins tərkibin yaxşılaşdırılması və süni mayalandırma tədbirlərinə üstünlük verilməsidir. Bu iş muxtar respublikada daim diqqətdə saxlanılır, baytarlar süni mayalandırma avadanlıqları ilə təmin olunurlar. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, bu il heyvandarlıq təsərrüfatlarında süni yolla 7 min 732 baş inək, düyə və camış mayalandırılmış, əvvəlki dövrdə mayalandırılmış inək, düyə və camışlardan 4 min 866 baş sağlam bala alınmışdır.

Muxtar respublikada 70 min 537 arı ailəsi vardır. Bu sahə üzrə dövlət proqramının qəbul olunması, istehsal olunan balın satışı üçün şəraitin yaradılması və ənənəvi olaraq "Bal" festivalının keçirilməsi arı ailələrinin çoxalmasına, bal istehsalının artmasına və bu sahədə sahibkarlığın inkişafına stimul olmuşdur. Əhalinin balıq əti ilə təmin olunması istiqamətində də əsaslı işlər görülmüşdür. Artıq muxtar respublikada 15 balıqçılıq təsərrüfatı fəaliyyət göstərir. Görülmüş işlərin nəticəsidir ki, 2017-ci ilin 9 ayı ərzində diri çəkidə ət istehsalı 17 min 725 ton, süd istehsalı 70 min 231 ton, yun istehsalı 886 ton, yumurta istehsalı isə 74 milyon 863 min ədəd olmuşdur. Bu dövrdə, ümumilikdə, 334 milyon 397 min 900 manat dəyərində kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 3,8 faiz çoxdur.



Kənd təsərrüfatının bitkiçilik sahəsində əldə olunan uğurlarda sahibkarların müasir kənd təsərrüfatı texnikaları ilə təchiz olunmasının böyük rolu vardır. Hazırda muxtar respublikada sahibkarlara aqroservis xidməti "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin rayonlarda olan kənd təsərrüfatı maşın və aqreqatları ilə yanaşı, həm də şəxsi texnikalar vasitəsilə həyata keçirilir. Ötən dövr ərzində "Naxçıvan Aqrolizinq" ASC-nin xətti ilə 1978 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası gətirilmiş, onlardan 1688 ədədi nağd hesablaşma və lizinq yolu ilə sahibkarlara satılmışdır. Alınmış texnika və aqreqatların 143 ədədi 2017-ci ilin 9 ayında gətirilmişdir. Mövcud texnikalar kənd təsərrüfatı sahəsində aqrotexniki tədbirləri keyfiyyətlə həyata keçirməyə imkan verir. Fermerlərə lizinq yolu ilə müasir tələblərə cavab verən yeni kənd təsərrüfatı texnikalarının alınıb icarəyə verilməsi ilə bağlı güzəştlər müəyyən edilmişdir.

Muxtar respublikada məhsuldar və keyfiyyətli toxum növləri istehsalının stimullaşdırılması məqsədilə toxumçuluq təsərrüfatlarının maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində işlər davam etdirilir. Hazırda muxtar respublikada 5 toxumçuluq təsərrüfatı fəaliyyət göstərir. Sahibkarlara elit, I və II reproduksiyalı buğda və arpa toxumlarının satışının təşkil edilməsi, eləcə də 70 faiz güzəştli şərtlərlə mineral gübrələrin verilməsi təmin olunur. Ötən dövr ərzində məhsul istehsalçıları 5 min 293 ton mineral gübrə ilə təmin olunmuşdur. İstehsal olunan I və II reproduksiyalı toxumların satışına görə dövlət tərəfindən subsidiyaların ödənilməsi, eləcə də əkin sahəsinin hər hektarına fermerlərə 50 manat yardım verilməsi təmin olunur.

Əhalini ilboyu meyvə-tərəvəz məhsulları ilə təmin etmək muxtar respublikada aqrar sahədə həyata keçirilən əsas tədbirlərdəndir. İritutumlu soyuducu anbarların tikilməsi və istixana komplekslərinin yaradılması ilin istənilən fəslində bazarın tələbatının ödənilməsinə imkan verir. Hazırda muxtar respublikada ümumi tutumu 14 min 30 ton olan 31 soyuducu anbar və sahəsi 128 min 162 kvadratmetr olan 21 istixana kompleksi fəaliyyət göstərir. Muxtar respublikada əhalinin ərzaq məhsullarına olan tələbatının etibarlı ödənilməsi istiqamətində əlavə tədbirlər də görülür, istehsal olunan malların satışı üçün hərtərəfli şərait yaradılır. Artıq bir neçə ildir ki, istehsalçıların istehsal etdikləri məhsulların satışını təmin etmək üçün kənd təsərrüfatı məhsullarının satış yarmarkaları təşkil edilir. Bütün bunlar əhalinin ərzaq məhsulları ilə etibarlı təmin olunmasında həlledici rol oynayır.

İstehsal prosesində aqrotexniki qaydalara düzgün əməl etmək vacib məsələdir. Akademik Həsən Əliyev adına "Araz" Elm-İstehsalat Birliyi muxtar respublikada bu sahədə fəaliyyətin təşkili üçün geniş imkanlar açır. Birliyin yardımçı təsərrüfatlarında əkinçiliyin inkişafı ilə bağlı aparılan təcrübə məhsuldar sortların əldə olunmasına və tətbiqinə imkan verir. Sahibkarlar və torpaq mülkiyyətçiləri arasında maarifləndirmə işləri aparılır, tövsiyə xarakterli bukletlər hazırlanaraq torpaq mülkiyyətçilərinə və sahibkarlara paylanılır.

***Muxtar respublikada kənd təsərrüfatının inkişafı və ərzaq təhlükəsizliyinin təmin olunması sahəsində qarşıya qoyulan vəzifələr bundan sonra da diqqət mərkəzində saxlanılacaq, ardıcıl tədbirlər həyata keçiriləcəkdir.***

**Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti**

*Təhsil millətin gələcəyidir*

## Hər bir millətin gələcəyi onun təhsilli, savadlı övladları ilə bağlıdır



***Ölkəmizdə xalqımızın ümummilli lideri Heydər Əliyevin müəllifi olduğu təhsil strategiyası yeni cəmiyyət quruculuğunun əsasını qoyub. Ulu öndər savadlı və milli dəyərlərə sədaqətli kadrların hazırlanmasını inkişafın ən vacib amili kimi müəyyənləşdirib və bu sahədə sistemli tədbirlər həyata keçirib.***





Görkəmli dövlət xadiminin yolunu uğurla davam etdirən ölkə başçısı cənab İlham Əliyev də təhsilin inkişafına böyük qayğı göstərir. Yeni məktəb binalarının tikilməsi, ali təhsil ocaqları, peşə və orta ixtisas məktəbləri üçün tədris korpuslarının istifadəyə verilməsi gənclərin hərtərəfli təhsil almaları üçün etibarlı zəmin yaradıb. Bunu Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının timsalında da görmək olar.

Dahi rəhbərin 1992-ci ildə Ali Məclisin Sədri işləyərkən, Naxçıvan Qarnizonunun nəzdində orta məktəbin yaradılması haqqında verdiyi qərar burada qulluq edən hərbçilər tərəfindən yüksək qiymətləndirilib. Çünki ulu öndər ölkəmizin digər bölgələrindən Naxçıvana gələn, bu qədim yurd yerinin sərhədlərini qoruyan hərbçilərin övladlarının təhsil almasına, onların savadlı vətəndaş kimi tərbiyə olunmasına böyük əhəmiyyət verirdi.

Bu məqamda qeyd edək ki, övladları məktəbli olan hər bir hərbçini xidməti zərurətlə əlaqədar bir bölgədən digərinə köçürüldükdə övladının təhsil alacağı məktəbin necə olacağı düşündürür. Həyatının 13 ilini Azərbaycanın cəbhə bölgələrində keçirən bir ana kimi bu hisslər mənə də yad deyil. Naxçıvan şəhərindəki hərbi hissələrdə qulluq edən hərbçilərin övladlarının bəxti bu cəhətdən gətirib desək, yanılmarıq. Bu qədim yurd yerinə gəldikdə və məktəbli övladım Naxçıvan Qarnizonunun tam orta məktəbində təhsil almağa başlayanda bunun bir daha şahidi oldum. Təhsilə göstərilən diqqət və qayğını burada daha aydın şəkildə hiss etdim.

Göstərilən dövlət qayğısının nəticəsidir ki, adıçəkilən təhsil müəssisəsi 2016-2017-ci tədris ilini uğurla başa vurub. Bu tədris ilində təhsil ocağının 37 məzunundan 34 nəfəri qəbul imtahanında iştirak edib. Onlardan 32 məzun ali məktəbə, 2-si isə orta ixtisas məktəbinə qəbul olub. Ali məktəb tələbəsi adını qazanan abituriyentlərin 8-i 500-700 intervalında bal toplayıb. Digər önəmli faktı da qeyd edək ki, 2 şagird Heydər Əliyev adına Hərbi Liseyə,1 şagird Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyə, 2 şagird Qızlar Liseyinə, 1 şagird Bakı Anadolu Liseyinə, 1 şagird isə Bakı Olimpiya Kollecinə qəbul olub.

O da xüsusi vurğulanmalıdır ki, bu gün Heydər Əliyev adına Hərbi Liseydə təhsil alan kursantların böyük bir hissəsi bu məktəbin məzunlarıdır . Bu isə o deməkdir ki, məktəbdə oxuyan şagirdlərdə hərbçi kimi şərəfli peşəyə maraq oyadılması diqqətdə saxlanılır.

Məktəbdə olarkən bir məqam da diqqətimizdən yayınmadı. Burada yaradılmış Heydər Əliyev guşəsinin önü şagirdlərlə dolu idi. Bunu onunla əlaqələndirmək olar ki, məktəbdə dahi rəhbərin irsinin öyrənilməsi və şagirdlərə öyrədilməsi üçün ardıcıl tədbirlər görülür.

Məktəbin direktoru, Azərbaycan Respublikasının Əməkdar müəllimi Natiq Əhmədov bizimlə söhbət zamanı bildirdi ki, bütün fənlərin tədrisində şagirdlərin vətənpərvərlik tərbiyəsi ön plana çəkilir.

Tədris müəssisəsində laboratoriya və fənn kabinələri, emalatxana və hərbi kabinə, idman zalı müasir tələblərə cavab verir. Kompüter otağında 38 kompüter,10 elektron lövhəli sinif də şagirdlərin ixtiyarına verilib. Məktəbin kitabxanasında Azərbaycan, dünya ədəbiyyatı klassiklərinin əsərləri və müasir Azərbaycan ədəbiyyatı nümunələri yer alıb.

Onu da qeyd edək ki, məktəbin kitabxanasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş "Oxunması zəruri olan kitabların Siyahısı"na daxil edilən kitablardan ibarət guşə yaradılıb.

Hazırda Naxçıvan Qarnizonu tam orta məktəbində 591 şagirdin təlim tərbiyəsi ilə 61 müəllim məşğul olur. Öyrəndik ki, yeni dərs ilində məktəbin 4 birinci sinfinə 76 şagird qəbul olunub.

Yüksək nəticə göstərərək ali məktəblərə qəbul olan şagirdlərin valideynləriylə birlikdə müəllimləri də sevinc içərisindədirlər. Məktəbin müəllimlərindən Südabə Məmmədova, Təranə Mütəllimova və Ulduz Eyvazova ilə həmsöhbət olduq. Ulduz müəllimə məktəb üzrə ən yüksək nəticəni göstərən Kərəm Babayev haqqında danışaraq bildirdi ki, Kərəm məktəbdə oxuduğu illərdə hərtərəfli təhsil almağa, məktəbin tədbirlərində fəal iştirak etməyə, nümunəvi şagird olmağa çalışıb. O, məktəbi "Qızıl" medalla bitirib, qəbul imtahanlarında 643 bal toplayaraq Bakı Dövlət Universitetinə daxil olub. İxtisas seçimində hüquq fakültəsi onun diqqətini daha çox cəlb edib.

Müəllimləri ilə görüşməyə gələn Səkinə Şərifova ilə də söhbətimiz maraqlı oldu. Səkinə Şərifova məktəbi "Fərqlənmə" attestatı ilə bitirib. Qəbul imtahanlarında 609 bal toplayaraq Naxçıvan Dövlət Universitetinin Mühasibat uçotu və audit ixtisasına daxil olub. Səkinə deyir ki, bu gün şagirdlərin yaxşı təhsil alması, vətənpərvər böyüməsi üçün məktəbdə hər cür şərait yaradılıb.

Təbii ki, qazanılan bütün uğurlar məktəbdə yaradılan ciddi nizam-intizamın və öz vəzifə borcunu, məsuliyyətini dərindən dərk edən müəllimlərin əməyi sayəsində mümkün olub. Bu isə o deməkdir ki, gənc nəslin gələcəyinə cavabdeh olan müəllimlər öz fəaliyyətlərini təhsil islahatlarında nəzərdə tutulan prinsiplər əsasında qurublar. Belə olan şəraitdə isə uğur qazanmaq heç də çətin deyil.

✍ **Ramiyyə ƏKBƏROVA**

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən qədim tarixə malik kitablar AMEA Naxçıvan Bölməsinə hədiyyə olunub.***

## Hədiyyə edilən kitabların təqdimatı olub



Bu münasibətlə keçirilən tədbiri giriş sözü ilə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açaraq deyib ki, bölmə elmi tədqiqatlarla yanaşı, maddi-mədəniyyət nümunələrinin aşkarlanması ilə də məşğul olur. Tapılan bu qiymətli nümunələr profillərinə uyğun olaraq müxtəlif muzeylərə hədiyyə edilir, bəziləri isə bölmədə saxlanılır.

Akademik bildirib ki, bəzi vətəndaşlar qədim əşyaları, kitabları təqdim etməkdə laqeydlik göstərirlər. Bu cür nadir əşyalar, kitab və əlyazmalar elm və mədəniyyət müəssisələrinə təqdim olunmalıdır ki, lazımınca araşdırılıb təbliğ edilsin. Xalqımızın ulu tarixini özündə əks etdirən maddi-mədəniyyət nümunələri bu müəssisələrdə həm lazımi şəkildə qorunur, həm də məxsus olduğu dövr haqqında əlavə məlumatlar verir.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova çıxış edərək qeyd edib ki, bu gün Naxçıvanda fəaliyyət göstərən mədəniyyət müəssisələrində xalqımızın tarixini, həyat tərzini, adət-ənənələrini özündə əks etdirən çox sayda maddi-mədəniyyət nümunələri qorunub saxlanılır. Nazirlik tərəfindən muzeylərimiz üçün maddi-mədəniyyət nümunələrinin toplanması işinə ciddi önəm verilir və bu işdə muxtar respublika sakinləri yaxından iştirak edirlər.

Vurğulanıb ki, 2017-ci ilin 9 ayı ərzində muzeylərə minə yaxın yeni eksponat daxil olub. Bu eksponatlar muzeylərə verilib. Muzeylərə hədiyyə olunan eksponatların nazirlik tərəfindən təqdimatı keçirilib. Bu tədbirlər bundan sonra da davam etdiriləcək.

Sonra qədim tarixə malik 18 kitabın təqdimatı olub. Bu kitablar içərisində "Təfsir-əl-Quran", "Elmi-heyvanat", "Kərbəla faciəsi" və başqa əsərlər də vardır.

AMEA Naxçıvan Bölməsinin Əlyazmalar Fondunun direktoru, filologiya elmləri doktoru Fərman Xəlilov hədiyyə olunan kitablara görə minnətdarlıq edərək deyib ki, tarixi kitablar xalqın milli sərvətidir. Onları qoruyub gələcək nəsillərə çatdırmaq hər birimizin vətəndaşlıq borcuna çevrilməlidir.

Sonra AMEA Naxçıvan Bölməsinə hədiyyə edilən kitablara baxış olub.

✍ **Nail ƏSGƏROV**

## Fransız dili müəllimləri üçün təkmilləşdirmə təlimlərinə başlanılıb

Fransa Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Orelia Buşezin Naxçıvan Muxtar Respublikasına səfəri zamanı əldə olunmuş razılığa əsasən muxtar respublikanın ümumtəhsil məktəblərində dərs deyən fransız dili müəllimləri üçün təkmilləşdirmə təlimləri təşkil olunub. Təlimləri Azərbaycan Dillər Universitetinin dosenti Gülbəniz Camalovanın müşayiət etdiyi fransız mütəxəssis xanım Sandrin Busar-Nillin aparır. Təlimlərin təşkilində məqsəd bu fənni tədris edən müəllimlərin bilik səviyyəsinin daha da yüksəldilməsi, onların yeni təlim metodları ilə tanış edilməsidir.

Qeyd edək ki, təlimlər zamanı fransız dili müəllimlərinə tədris prosesində şifahi və yazılı nitqi inkişaf etdirmək məqsədilə Fransanın tarixi, müxtəlif bölgələri, milli mətbəxi, ədəbiyyatı və incəsənəti barədə məlumatların şagirdlərə əyani şəkildə, müxtəlif oyunlar vasitəsilə çatdırılması, habelə leksika ilə bağlı oyunların keçirilməsi üsulları öyrədiləcək.

Təlimlər çərçivəsində Naxçıvanın qədim tarixi abidələri və görməli yerləri ilə tanışlıq olacaq, sonda müəllimlərə sertifikatlar təqdim olunacaq.

**Xəbərlər şöbəsi**

*Yeni nəşrlər*

## "Nuh diyarı Naxçıvan" kitabında Naxçıvan abidələrinin bədii əksi

***Poeziyasının özünəməxsusluğu, sözünün bədii dəyəri baxımından seçilən şairlərdən biri olan Muxtar Qasımzadənin bu günlərdə nəşr olunan "Nuh diyarı Naxçıvan" kitabı tarixi abidələrimizin poetik əksi və təbliği baxımından özünəməxsusluğu ilə diqqəti cəlb edir.***

Kitab Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunması münasibətilə "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində nəfis tərtibatla nəşr olunub. Yeni nəşrdə yer alan tarixi abidələr haqqındakı axıcı, poetik və tərənnüm mahiyyətli şeirlərin hər birinin vətəndaş yanğısı ilə qələmə alındığını müşahidə etmək çətin deyil. Özünün "bu daş kitabələri oxuyan gərək, kapir-kəpir vərəqini qaldıran gərək" fikirlərinə uyğun olaraq o, bu abidələri "oxuyub vərəqləməyə başlayır:

*Tarix vüqar gətirib*
*qayasına, daşına.*
*Nuhdan xəbər gətirib,*
*çatıb müdrik yaşına*
*Günəşimdir, Yer kimi*
*Mən dolanım başına,*
*dönüm Naxçıvanımın,*
*Anam Naxçıvanımın.*



Kitabda "Gəmiqaya", "Əshabi-Kəhf", "Fərhad evi", "Duz saray" və digər şeirlərlə qarşılaşırıq. Bu şeirlər də Naxçıvan haqqında təəssürat yaratmaq baxımından digər şeirlərdən seçilmir, eyni zamanda türk-islam abidələri haqqındakı şeirlərinin proloqu kimi çıxış edir.

Sonrakı poetik nümunələrdə Naxçıvanda mövcud olan tarixi tikililərdən bəhs edir. Həmin şeirlər vasitəsilə biz Oğlan qalanı, Qız qalanı, Çalxanqalanı, Əlincəni, Xaraba Gilanı, Şərq hamamını, Buzxananı, Qarabağlar türbəsini, Xanəgahı, Gülüstanı, Zorxananı bədii dillə daha yaxından tanıyırıq.

Şair bəhs etdiyi hər bir abidə haqqında tarixi məlumat verərkən onun poetik yaddaşda qalıcılığı problemini də düşünmüş və bu mənada, uğurlu nümunələr ortaya qoymuş, eyni zamanda Naxçıvan tarixinin müxtəlif səhifələrini poetik dillə oxucuya təqdim edə bilmişdir.

Muxtar Qasımzadənin bu baxımdan seçilən şeirlərindən biri də " Babək qalası"dır:

*Söz düşər çox eldə yüz qalasından,*
*Tapılar az eldə iz qalasından.*
*Dolanıb qayıtsaq Bəzz qalasından*
*Biləvdə qalandı Babək qalası.*

*Ər oğlu ər olub, mərd saxlayıb o,*
*Ağır döyüşlərdə yurd saxlayıb o.*
*Babək Xürrəmidən ad saxlayıb o,*
*Milli qəhrəmandır Babək qalası.*

Kitabdakı şeirlərin girişindəki məlumat diqqəti xüsusilə cəlb edir. Bununla şair Naxçıvanın tarixi yaddaşına çıraq tutur, onu Nuh diyarı kimi təqdim edir.

Fikirlərimizi Muxtar Qasımzadənin Əlincə qalası haqqında yazdığı "Əlincə" şeiri ilə yekunlaşdırmaq istərdik. "Əlincə" şeirində də şair bu abidənin əzəmətini göstərə bilmişdir. Ən maraqlı cəhət həm də ondan ibarətdir ki, bu şeirin oxunuşu zamanı meydana gələn ritmin özündə də bir döyüş ruhu, mübarizə çağırışı var. Fikrimizin təsdiqi kimi şeirin bir neçə misrasına baxaq:

*"Şahtaxtı" – şah qalası,*
*dizində ərlər yatıb.*
*Şırımlanıb yaxası,*
*köksündə sirlər yatıb,*
*daş alnında düşüncə,*
*Əlincə.*

Nəzərə alsaq ki, sonrakı yüzilliklərdə bu abidələr haqqındakı məlumat bazasından biri də yaradıcı insanların ortaya qoyduğu irsdir, bu mənada, Muxtar Qasımzadənin "Nuh diyarı Naxçıvan" kitabında toplanan şeirləri də böyük dəyərə malikdir.

**Elxan YURDOĞLU**
*filologiya üzrə fəlsəfə doktoru*

## Həkim briqadaları kəndlərdə profilaktik tibbi müayinələr aparıblar

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin həkim briqadası Şahbuz rayonunun Külüs kənd həkim ambulatoriyasında 70, Kardioloji Dispanserin həkim briqadası Culfa rayonunun Camaldın kəndində 32 sakini profilaktik müayinələrdən keçirib.***

Doğum Mərkəzinin yüksəkixtisaslı həkimlərdən ibarət briqadası isə Kəngərli rayonunun Böyükdüz kəndində olub. 11 sakində laboratoriya, 27-də USM müayinəsi, 29-da ginekoloji, 6 nəfərdə pediatrik müayinə aparılıb. Bu briqada, həmçinin Naxçıvan şəhərindəki tikiş fabrikində 18 qadın işçini tibbi müayinədən keçirib.

Diaqnostika-Müalicə Mərkəzinin həkim briqadası tərəfindən Babək rayonunun Nehrəm kəndində 40 nəfər müayinələrə cəlb olunub, 18 cərrahi əməliyyat aparılıb. Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkim briqadası Culfa rayonunun Ərəfsə kəndində 47 nəfəri müayinə edib, 8 nəfərdə EKQ müayinəsi, 14 nəfərdə qanın ümumi analizini aparıb.

Rayon mərkəzi xəstəxanaları da əhalinin hər bir təbəqəsinin, xüsusən ucqar dağ və sərhəd kəndlərində yaşayan insanların keyfiyyətli tibbi xidmətlə əhatə olunmasına, vaxtında müalicəyə cəlb edilməsinə şərait yaradıb. Belə ki, Ordubad rayonunun Tivi kəndində 97 sakin tibbi müayinədən keçib, 17 nəfərdə USM, 26 nəfərdə laborator müayinə aparılıb, 3 nəfər dispanser qeydiyyatına götürülüb. Culfa rayonunun Ərəfsə, Gülüstan, Ərəzin kəndlərində 112, Kəngərli rayonunun Xok kəndində 33, Şahbuz rayonunun Keçili kəndində 43, Sədərək rayonunda və Şərur rayonunun Gümüşlü kəndində 132, o cümlədən 4 laborator müayinə aparılıb. Babək rayonunun Gülşənabad kəndində isə əhalinin 56-60 yaşlı təbəqəsi, 27 uşaq tibbi müayinələrə, 19 nəfər EKQ müayinəsinə cəlb edilib.

Aşkar olunan xəstələrin müvafiq səhiyyə müəssisələrində dərin tibbi müayinələrə cəlb edilməsi məsləhət görülüb, onlara ambulator kartlar açılıb. Kənd üzrə dispanser qeydiyyatında olan xroniki xəstələrin sayı dəqiqləşdirilib. Əhali arasında ürək-damar, yoluxucu, dəri-zöhrəvi, şəkərli diabet, onkoloji, ginekoloji xəstəliklər, uşaqların düzgün qidalanması, ana südünün əhəmiyyəti barədə səhiyyə maarifi işləri aparılıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Xüsusi təyinatlılar cüdo birinciliyinin qalibi olub

***Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində Naxçıvan qarnizonu üzrə hərbi qulluqçular arasında keçirilən cüdo birinciliyinə yekun vurulub.***



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Güləş Federasiyası və Əlahiddə Ümumqoşun Ordunun birgə təşkilatçılığı ilə keçirilən birincilikdə 15 komandadan 85 hərbi qulluqçu 7 çəki dərəcəsi üzrə mübarizə aparıb. Hərbi qulluqçularla yanaşı, Heydər Əliyev adına Hərbi Liseyin kursantları da yarışda iştirak ediblər.

Birincilikdə komanda hesabında 1-ci yerdə xüsusi təyinatlılar, 2-ci yerdə sərhədçilər, 3-cü yerdə isə motoatıcılar qərarlaşıb. Fərdi hesabda isə əsgərlər Məhəmməd Muradov (60 kiloqram), Orxan Cabbarlı (66 kiloqram), Orxan Əsgərzadə (73 kiloqram), Yusif Ələkbərov (81 kiloqram), baş leytenant Ziya Şıxəliyev (90 kiloqram), gizir Sadiq Qasımov (100 kiloqram), kiçik çavuş Dərya Quliyev (+100 kiloqram) birinci yerin qalibi olublar.

Qalib komandalara və hərbi qulluqçulara fəxri fərmanlar təqdim edilib.

**✍ Ceyhun MƏMMƏDOV**

# Tenderə dəvət

***Tarix: 1 noyabr 2017***

***Kredit nömrəsi və adı: 3079-AZE: Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı – Layihə 3***

***Müqavilə nömrəsi və adı: MFF-033-T3-NCB-1.04: Şəkərabad kəndində su və kanalizasiya şəbəkəsinin tikintisi***

***Təkliflərin verilməsi üçün son tarix: 30 noyabr 2017, Bakı vaxtı ilə $10^{00}$***

1. Azərbaycan Respublikası Asiya İnkişaf Bankından "Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı-Layihə 3"ün xərclərini qarşılamaq üçün kredit almışdır. Bu kreditin bir hissəsi adı yuxarıda çəkilən müqavilə çərçivəsində ödənişlər aparmaq üçün istifadə ediləcəkdir. Tender Asiya İnkişaf Bankına üzv olan ölkələrin münasib şirkətləri arasında açıq elan edilir.

2. Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi – "Sifarişçi" iddiaçıları aşağıdakı işləri özündə əhatə edən, lakin bunlarla məhdudlaşmayan Şəkərabad kəndinin su və kanalizasiya sisteminin tikintisi üçün möhürlənmiş təkliflər verməyə dəvət edir:

*A. Su Təchizatı Sistemi*

- Siyirtmələr, yanğın hidrantları və birləşmələrlə birlikdə 15182 metr uzunluqda supaylayıcı şəbəkənin tikintisi
- Su sayğaclarının gətirilməsi və quraşdırılması da daxil olmaqla, 560 ev birləşməsinin tikintisi

*B. Kanalizasiya Sistemi*

- 14212 metr uzunluqda kanalizasiya şəbəkəsinin tikintisi
- 372 ədəd kanalizasiya quyularının tikintisi
- 560 ədəd ev birləşməsinin tikintisi

3. Ehtimal olunan icra müddəti 150 gündür.

4. Milli Rəqabətli Tender münasib ölkələrdən olan iddiaçılar arasında AİB-in Bir Mərhələli Tender Prosedurlarına əsasən aparılacaqdır.

5. Tender münasibliyini təsdiq edən və tender sənədlərində göstərilmiş peşəkarlıq kriteriyalarına uyğun gələn iddiaçılar arasında keçirilir:

- Son beş (5) ildə oxşar işlərdə dəyəri ən azı ($4,000,000) dörd milyon ABŞ dolları olan ən azı bir (1) müqaviləni uğurla başa çatdırmış;
- Son 3 (üç) ildə başa çatmış tikinti müqavilələri üzrə ödənişlərlə orta illik tikinti dövriyyəsi ən azı ($10,800,000) on milyon səkkiz yüz min ABŞ dolları ekvivalentində olan;
- Üç milyon ABŞ dolları ($3,000,000) dəyərində, başqa müqavilələrin icrası üçün nəzərdə tutulmamış likvid aktivlərə, girov qoyulmamış real aktivlərə, kredit almaq imkanlarına və digər bu kimi maliyyə resurslarına və ya bu resurslardan istifadə etmək hüquqlarına malik olan;

6. Əlavə məlumat əldə etmək və tender sənədlərini nəzərdən keçirmək üçün iddiaçılar aşağıda göstərilən ünvanla əlaqə saxlaya bilərlər.

***Əlaqələndirici şəxs: İbrahim Məmmədov***
***Layihə İdarəetmə Qrupunun direktoru***
***Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi***
***Naxçıvan şəhəri, Xətai məhəlləsi***
***Azərbaycan Respublikası, Naxçıvan Muxtar Respublikası***
***Telefon: (+99436) 545-26-18,***
***Faks: (+99436) 545-30-67;***
***Elektron ünvan: naxdmsta@gmail.com***

7. Tender sənədlərini ingilis dilində əldə etmək üçün münasib iddiaçılar:

- Şəkərabad kəndində supaylayıcı və kanalizasiya şəbəkəsinin tikintisinin tender sənədlərini əldə etmək üçün yazılı olaraq yuxarıdakı ünvana müraciət etməlidirlər.
- 170 manat və ya 100 ABŞ dolları məbləğində geri qaytarılmayan vəsaiti birbaşa aşağıdakı hesab nömrəsinə köçürməlidir.
- Geri ödənilməyən məbləğ DMSTK-nın bank hesabına keçdikdən sonra iddiaçıların rəsmi nümayəndələri tender sənədlərini DMSTK ofisindən əldə edə bilərlər.
- Alternativ olaraq, DMSTK sənədlərini maraqlı iddiaçılara onlardan yazılı müraciət aldıqdan, tələb olunan vəsait bank hesabına keçirildikdən, 170 manat və ya 100 ABŞ dolları kuryer xidməti üçün əlavə vəsait ödənildikdən sonra kuryer poçt vasitəsilə göndərilə bilər. İtki və ya gec çatdırılma halları üçün heç bir öhdəlik daşınmır.

***Alanın adı: Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi (DMSTK)***
***VÖEN: 0200022991***
***Alanın Bankı: Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsi***
***Kod: 502906***
***VÖEN: 0200087741***
***Müxbir hesab No:***
***AZ88NABZ01451700000000012944***
***SWIFT Kod: NABZAZ2C***
***Manat ilə hesab No:***
***AZ95NABZ12360150000000026944***
***ABŞ dolları ilə hesab No:***
***AZ91NABZ12360250000000001840***

8. Tender sənədlərini ingilis dilində aşağıdakı ünvana çatdırın.

- Layihə İdarəetmə Qrupunun Direktoru İbrahim Məmmədov

Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi, Naxçıvan şəhəri, Xətai məhəlləsi

- Çatdırılma üçün son tarix 23 noyabr 2017-ci il, Bakı vaxtı ilə saat $10^{00}$
- Tender sənədlərində göstərilmiş tender zəmanəti də əlavə edilməlidir.

9. Təkliflər iştirak etmək istəyən şirkətlərin nümayəndələrinin iştirakı ilə təkliflərin verilməsi üçün göstərilmiş son tarixdən dərhal sonra açılacaqdır.

# Invitation for bids

***Date: 1 November 2017***

***Loan No. and Title: 3079-AZE: Water Supply and Sanitation Investment Program – Project 3***

***Contract No. and Title: MFF-033-T3-NCB-1.04: Construction of Water Distribution and Sewerage Networks of Shakarabad village***

***Deadline for Submission of Bids: 30 November 2017, 10:00 Baku Time***

1. The Republic of Azerbaijan has received a loan from the Asian Development Bank (ADB) towards the cost of Water Supply and Sanitation Investment Program – Project 3. Part of this loan will be used for payments under the Contract named above. Bidding is open to bidders from eligible member countries of the ADB.

2. The State Amelioration and Water Management Committee (SAWMC) of the Nakhchivan AR "the Employer" invites sealed bids from eligible bidders for the Construction of Water Distribution and Sewerage Networks of Shakarabad Village, consisting of, but not limited to, the following:

*A. Water Supply System*

- Construction of water distribution network – 15182 m, together with associated valves, fire hydrants, fittings, etc.
- Connection of houses including supply and installation of water meters – 560 sets

*B. Sewerage System*

- Construction of wastewater (sewerage) network – 14212 m
- Construction of wastewater (sewerage) manholes – 372 sets
- Connections –560 sets

3. The estimated implementation period is 150 days.

4. National Competitive Bidding will be conducted in accordance with ADB's Single-Stage:One-Envelope procedure and is open to all Bidders from eligible countries.

5. Bidding is open to Bidders who can prove their eligibility and qualifications as mentioned hereunder and in the Bidding Documents:

- Experience in construction and successful completion of minimum one (1) contract with similar works, with a value of at least equivalent to Four Million US Dollars ($4,000,000) within last five (5) years;
- Minimum average annual construction turnover shall be at least equivalent to Ten Million Eight Hundred Thousand US Dollars ($10,800,000) calculated as total certified payments received for contracts in progress or completed, within the last three (3) years;
- Access to or availability of financial resources such as liquid assets, unencumbered real assets, line of credit and other financial means, other than any contractual advance payments for the amount of Three Million US Dollars ($3,000,000) to meet the bidder's financial resource requirement;

6. To obtain further information and inspect the bidding documents, bidders should contact:

***Mr. Ibrahim Mammadov, Director of Project Management Unit (PMU)***
***State Amelioration and Water Management Committee, Nakhchivan AR***
***Khatai district, Nakhchivan The Republic of Azerbaijan, Nakhchivan Autonomous Republic***
***Telephone: (+99436) 5452618***
***Facsimile number: (+99436) 5453067***
***Electronic mail address:***
***naxdmsta@gmail.com***

7. To purchase the bidding documents in English, eligible bidders should:

- Write to the address above requesting the bidding documents for Construction of Water Distribution and Sewerage Networks of Shakarabad Village
- Pay a non-refundable fee of Manat170 or $100 by direct deposit to the Account Number mentioned below.
- Upon receipt of appropriate non-refundable fee to the bank account of SAWMC, official representatives of the bidders may pick-up the bidding documents at the SAWMC office.
- The documents may be sent by courier for an additional fee of Manat170 or $100 paid in the account mentioned below. Upon receipt of the cleared payment of the non refundable fee and courier fee, the documents will be promptly dispatched by courier. No liability will be accepted by SAWMC for loss or late delivery.

***Beneficiary's Name: State Amelioration and Water Management Committee (SAWMC), Nakhchivan AR***
***TAX ID: 0200022991***
***Beneficiary's Bank: Nakhchivan Office of the Central Bank of Azerbaijan Republic***
***Code: 502906***
***TAX ID: 0200087741***
***Correspondent Acc No:***
***AZ88NABZ01451700000000012944***
***SWIFT Code: NABZAZ2C***
***Manat account No:***
***AZ95NABZ12360150000000026944***
***USD account No:***
***AZ91NABZ12360250000000001840***

8. Please deliver your bid in English language to the address:

- Attention: Ibrahim Mammadov, Director of PMU
- State Amelioration and Water Management Committee, Nakhchivan AR Khatai district, Nakhchivan
- on or before the deadline 30 November 2017 at 10:00 AM (Baku Time)
- together with a Bid Security as specified in the bidding document

9. Bids will be opened immediately after the deadline in the presence of bidders' representatives who choose to attend.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 876